# Vətəndaş mövqeli alim Zemfira Səfərova

**Həcər Babayeva**
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: ekoada@hotmail.com

**Annotasiya.** Bu gün sənətşünaslığın bir qolu olan musiqi elmimizin nəzəriyyəsi, onun tədqiqi və nəşri birbaşa akademik Zemfira Səfərovanın adı ilə bağlıdır.
Üzeyirşünaslığın inkişafında misli görünməmiş xidmətləri olan Zemfira xanım öz mövqeyini dahi bəstəkar Ü.Hacıbəyli yolunun davamçısı kimi Azərbaycan musiqisinin inkişafına xidmət etməkdə görür və bunu özünün vətəndaş borcu bilir. Müasirləri haqqında yazdığı məqalələrində də onların vətəndaş mövqeyini araşdırmağa cəhd edir. Dahi bəstəkar Q.Qarayevdən gətirdiyi sitatlarda yaradıcı insanlara vətənpərvərlik mesajı ötürür. Zemfira xanımın yaradıcılığında Qarabağ mövzusu qırmızı xətlə kecir. Qarabağa dərin məhəbbət və vətənpərvərliyi yazılarının hər sətrində hiss olunur. "Şuşa-musiqimizin beşiyidir" məruzə və məqaləsində mənfur düşmənləri susdura biləcək tutarlı faktlar və sübutlarla fikrini tamamlaya bilmişdir.
Məqalədə "Qarabağ-Azərbaycandır" şüarı musiqişünasın kredosu olaraq onun vətəndaş mövqeyini əks etdirir.
**Açar sözlər:** Şuşa, müstəqillik, Ü.Hacıbəyli, Q.Qarayev, Z.Səfərova, musiqi

**Məqalə tarixçəsi:** göndərilib – 12.07.2022; qəbul edilib – 19.07.2022

# Zemfira Safarova – a scientist with a civil position

**Hajar Babayeva**
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: ekoada@hotmail.com

**Abstract.** Today the history and theory of music science, which is part of art criticism, are directly related to the name of Zemfira Safarova. Being the founder of source studies in the musicology of Azerbaijan, she also had great merits in the development of musical theory. In the articles that she wrote about her contemporaries, she tried to explore their civic positions. She gave patriotic messages to creative people in her quotes from the genius composer Gara Garayev. The theme of Karabakh has an important place in Zemfira Safarova's creativity. Deep love and patriotism for Karabakh is felt in every line of her works. In the lecture and article "Shusha is the cradle of our music" she could express her opinion with solid facts and evidence that could silence damned enemies.
The slogan "Karabakh is Azerbaijan" is the creative credo of a musicologist and reflects her civic position.
**Keywords:** Shusha, independence, U.Hajibeyli, G.Garayev, Z.Safarova, music

**Article history:** received − 12.07.2022; accepted − 19.07.2022

## Giriş / *Introduction*

Azərbaycan musiqişünaslıq elminin bütöv bir mərhələsi Əməkdar incəsənət xadimi, Əməkdar elm xadimi, sənətşünaslıq elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü Zemfira xanım Səfərovanın adı ilə bağlıdır.

Musiqişünaslığın elə bir qolu yoxdur ki, Zemfira xanımın elmi yaradıcılığından yan keçsin. Bu, istər musiqi tarixi və nəzəriyyəsi olsun, istər tənqidi-publisistik məqalə və araşdırmalar olsun, istər etno-muzikoloji problemlər, istərsə də elmi redaktorluq olsun.

Bu gün sənətşünaslığın bir qolu olan musiqi elmimizin nəzəriyyəsi və tarixi, onun tədqiqi, nəşri birbaşa Zemfira xanımın adı ilə bağlıdır.

Azərbaycan musiqişünaslığında mənbəşünaslığın əsasını qoyan Zemfira xanımın Üzeyirşünaslığın inkişafında da misli görünməmiş xidmətləri vardır.

Bütün bu sadaladığımız sahələrdə apardığı araşdırmalarında Zemfira xanım ən əvvəl özünün vətəndaş mövqeyini ortaya qoyur, bir vətənpərvər kimi çıxış edir. Çünki Zemfira xanımın doğulub-böyüdüyü ata evində, sonralar isə ailə qurduğu ocaqda da vətənini sevən, xalqına sədaqətlə xidmət edən hər kəs, vətənpərvərlik kodunu daşıyanlar olublar.

## Əsas hissə / *Main Part*

Hələ ilk araşdırmalarını Ü.Hacıbəylidən başlayan və sonra bütün yaradıcılığı boyu bu araşdırmaları davam etdirən Zemfira xanım dahi bəstəkarın vətənpərvərliyinə, onun Azərbaycan musiqi incəsənətinin inkişafında tutduğu mövqeyinə valeh olur. Öz mövqeyini də dahi Üzeyir bəy yolunun davamçısı kimi, Azərbaycan musiqisinin inkişafına xidmətdə görür və bunu özünün vətəndaşlıq borcu bilir. Zemfira xanımın öz sözlərilə desək, Üzeyir bəyin irsinə elə bənd olub ki, onun cazibəsindən çıxa bilməyən alim Üzeyirşünaslığın inkişafında misli görünməmiş xidmətlər göstərib. Təkcə "Həmişəyaşar ənənələr" kitabında ard-arda gələn 20 məqalə məhz Ü.Hacıbəyov irsinə, onun yaradıcılığına həsr olunan elmi işlərdir. Alim onun yaradıcılığında ənənə, müasirlik və beynəlmiləlçilikdən tutmuş, xəlqilik problemlərinə qədər hər şeyi araşdırır. "Leyli və Məcnun" operasını araşdıran müəllif bu operanı təkcə Azərbaycanın musiqi tarixi ilə məhdudlaşdırmır, onun Şərq xalqlarının professional musiqi mədəniyyətinin yaranmasında böyük rolunu da vurğulayır [1, s.80].

Milli musiqişünaslığın zəngin töhfəsi olan "Azərbaycanın musiqi elmi" monoqrafiyasında artıq Azərbaycan musiqisinin açılmamış bir qolunu, Şərq aləminin alimləri kimi tanınan Səfiəddin Ürməvi, Əbdülqadir Marağayi, Mir Möhsün Nəvvabın Azərbaycana mənsub olmalarını sübuta yetirərək mənbəşünaslığın əsasını qoyur. Böyük konfranslarda Paris, Tehran, Türkiyə və b. elmi yaradıcılıq tədbirlərində bunları bir daha dilə gətirməklə özünün vətəndaş mövqeyini ortaya qoyur.

Akademik Bəkir Nəbiyev Zemfira xanıma həsr olunmuş "Musiqi tariximizin yorulmaz tədqiqatçısı" məqaləsində bu tədqiqat işi haqqında yazırdı: "Bununla Zemfira xanım çox humanist bir missiyanı da yerinə yetirmiş, gələcəkdə musiqişünaslıq klassikamızla məşğul olacaq araşdırıcıların işini xeyli asanlaşdırmış, bu nadir mətnləri çağdaş ana dilimizdə onların sərəncamına vermişdir".

İctimai-humanitar sahədə, o cümlədən musiqişünaslıqda klassik irs çox zəngin bir xəzinədir. Bu günün araşdırıcısı həmin xəzinənin ayrı-ayrı incilərini tapıb, necə deyərlər, üstünün tozunu silib çağdaşlarına, bizlərə təqdim edəndə, bu incilər zəmanəmizin gur işığında yenidən par-par parlayır. Mən deyərdim ki, bu xəzinəni və onun incilərini bizlərə məhz Ü.Hacıbəylinin davamçısı olan Zemfira xanım bəxş etmişdir" [2, s.155].

Zemfira xanım müasiri olduğu sənət dostlarının yaradıcılığı barədə onlarla məqalələr yazmışdır və hər məqaləsində o, insanların vətənpərvərliyini, vətəndaş mövqeyini araşdırıb, onu oxucusuna daha dərindən tanıtmağa çalışmışdır. Məsələn, Q.Qarayev haqqında yazdığı "Üçüncü

simfoniya haqqında düşüncələr" məqaləsində yazır: "Millilik və beynəlmiləlçilik. Ənənə və novatorluq. Bu estetik nəzəri prinsiplər müasir Azərbaycan musiqisinin canlı yaradıcılıq praktikaslnda parlaq ifadəsini, üzvi vəhdətini bəstəkarımız Q.Qarayevin əsərlərində tapmışdır" [1, s.263].

Həmin məqalədə Q.Qarayevin hər kəsə nəsihəti olan sitatlarını gətirir. Onlardan birini demək istərdim: "Xalqla olan əlaqə kompaniya deyil, ekskursiya deyil... Əsl sənətkar bioloji və sosioloji cəhətdən xalqa məxsusdur, onun bir hissəsidir" [1, s.283].

Alim məqalələrində belə sitatları qabartmaqla, gənclərə, yaradıcı insanlara vətənpərvərlik mesajı ötürür.

Bəstəkar Firəngiz Əlizadəyə həsr etdiyi "Şərq və Qərbin möhtəşəm vəhdəti" məqaləsində o yazır: "Firəngiz Əlizadənin yaradıcılığı, mədəniyyətlərin dialoqunu gerçəkləşdirən əsas vasitələrdən biridir, bəstəkarın yaradıcılığının kökü isə muğam sənətinə bağlıdır" [2, s.128].

Sonra elə bu məqalədə öz mövqeyini aşaraq, sanki oxucusuna tövsiyə verərək yazır: "Desək ki, muğam Azərbaycan xalqına Tanrının göndərdiyi vergidir, yəqin ki, yanılmarıq, lakin bu vergidən necə istifadə etmək, onu necə qiymətləndirmək, qorumaq, inkişaf etdirmək, tədqiq və təbliğ etmək, hifz etmək, gələcək nəsillərə təhrifsiz ötürmək, önəmli problemlərdir" [2, s.128].

Və nəhayət, Zemfira xanımın işıq üzü görmüş, son iki kitabı "Şuşa-Azərbaycanın musiqi qalasıdır" və "Azərbaycan musiqisi müstəqillik illərində" elmi-publisistik işi barədə bir neçə söz demək istərdim.

Müəllif yazır: "Təəssüflər olsun ki, bizim torpaqların 20 faizi – Qarabağın bir sıra rayonları və musiqimizin beşiyi və konservatoriyası olan Şuşa, artıq çox illərdir ki, erməni işğalçılarının, qəsbkarlarının tapdağı altında idi. Bəs necə olub ki, bu uzun illər ərzində bu yerlərdən bir nəfər də olsun məşhur erməni musiqiçisi yetişməyib? Çünki burada xalqın genetik kodunun əhəmiyyətli rolu şübhəsizdir. Biz əminik ki, bu torpaqlar hal-hazırda Azərbaycana qayıdandan sonra, buralarda yenə "Qarabağ şikəstəsi" çalınacaq, "Qarabağda bir dənəsən", "Şuşanın dağları" və digər Şuşaya həsr olunan mahnılarımız oxunacaq və yeni Qarabağ bülbülləri cəh-cəh vuraraq, hər yerə səs salan xanəndələr və sazəndələr dəstəsi və istedadlı bəstəkarlar ordusu yetişəcək!" [3, s.4]

Hələ 20 il bundan əvvəl Şuşanın 250 illiyinə həsr olunmuş böyük respublika əhəmiyyətli elmi-nəzəri konfransda Zemfira xanım "Şuşa – musiqimizin məbədidir" adlı məruzəsi ilə çıxış etmişdi. O vaxtdan bu günə qədər bu mövzu alimin tədqiqat obyektinə çevrilmişdir. Ümumiyyətlə, Zemfira xanımın vətəndaş mövqeyi onun iştirak etdiyi beynəlxalq konfranslarda daha qabarıq şəkildə üzə çıxır. Səmərqənd simpoziumunda M.M.Nəvvab və onun "Vüzuhul-ərqam" risaləsi, Türkiyə millətlərarası Böyük Azərbaycan konqresində "Ü.Hacıbəyov yaradıcılığının əsas xüsusiyyətləri", Parisdə UNESCO-nun keçirdiyi "Dədə Qorqud" dastanının 1300 illiyinə həsr edilmiş Beynəlxalq konqresdə "Dədə Qorqudun musiqi dünyasının bəzi məsələləri" və digər konfrans və simpoziumlarda Zemfira xanım Azərbaycan musiqi mədəniyyəti barədə yüksək fikirlər yarada bilmişdir.

Hələ 1993-cü ildə yazılan "Qarabağın musiqi mədəniyyəti" məqaləsi dövrün hər vaxtında aktualdır, kəskin faktlara dayanan, mənfur düşmənləri susdura bilən bir elmi işdir.

"Şuşa Azərbaycanın musiqi qalasıdır" kitabında alim iki mötəbər şəxsin – M.M.Nəvvab və C.Qaryağdıoğlunun Şuşa şəhərinin mədəni və musiqi inkişafındakı rolunu araşdırır. Nəvvabın "Vüzuhul-ərqam" risaləsini tədqiq edir, C.Qaryağdıoğluna həsr olunmuş 10 məqalədə, özünün dediyi kimi, "Şərq musiqisinin peyğəmbərini" müxtəlif rakurslardan araşdıraraq oxucusuna təqdim edir.

Kitabın sonluğunda Zemfira xanım yazır: "Biz, "Şuşa – Azərbaycanın musiqi qalası"nın yalnız iki parlaq ulduzu – musiqişünas, şair, rəssam M.M.Nəvvab və "Şərq musiqisinin peyğəmbəri", ustad-xanəndə C.Qaryağdıoğlu haqqında söhbəti bitirdik.

Lakin hələ Şuşa fəzasında bərq vuran yüzlərlə ulduz gələcəkdə yeni kitabların mövzusu olacaqdır [3, s.217].

Qədim dövrdən başlayan və dövrümüzə qədər gələn 5 cilddən ibarət "Azərbaycan musiqi tarixi" adlı akademik nəşrin elmi redaktoru və layihənin rəhbəri olan Zemfira xanım Azərbaycan musiqi tarixinə misli görünməmiş bir töhfə

vermişdir. Bəlkə də başqa birisi olsaydı, bununla özünün musiqi ictimaiyyəti qarşısındakı missiyanı bitmiş hesab edərdi. Çünki bu titanik iş gərgin əməyin məhsuludur. Amma Zemfira xanım bununla kifayətlənmir. O öz oxucusunu müstəqillik illərinə aparır, o illərdə görülən işlərlə tanış etmək istəyir. "Azərbaycan musiqisi müstəqillik illərində" kitabını vərəqləyərkən, hiss olunur ki, müəllif bir Azərbaycan vətəndaşı kimi, kitabın hər bir sətrini böyük qürur hissilə yazmışdır.

Azərbaycan musiqisinin hər bir janrında – simfonik, opera-balet, xor musiqisi, kamera-instrumental, musiqili komediya, caz və s. sahədə yaranan əsərlərin ensiklopedik məlumatı, araşdırma aparmaq istəyən musiqişünaslara və hər bir oxucuya çox gözəl töhfədir.

Müstəqillik illərində Azərbaycan Bəstəkarlar İttifaqının və Azərbaycan Milli Elmlər Akademiyasının əhəmiyyətli rolunu xüsusilə qeyd edən müəllif o dövrdə yazıb-yaradan bəstəkarları öz oxucusuna bir daha tanıdır. "Azərbaycan musiqisi beynəlxalq məkanda" məqaləsində Zemfira xanım öz həmvətənlərinin nailiyyətlərinə sevinir, onları Azərbaycan musiqisini sevənlərə təqdim edir.

## Nəticə / *Conclusion*

Biz əminik ki, vətənpərvər alim bu kitabını yazanda böyük qürur hissi keçirmişdir. Mən də bu yazını Zemfira xanımın aşağıdakı fikirlərilə bitirmək istərdim:

"Qarabağ – Azərbaycandır!" Prezident İlham Heydər oğlu Əliyevin bu qanadlı şüarı bütün müharibə boyu səslənmişdi. Xalqımız da inanırdı ki, bu haqq, ədalət mübarizəsi tezliklə Azərbaycanın parlaq qələbəsi ilə bitəcək. Bu, belə də oldu. Qarabağ və Azərbaycanın musiqi qalası "Şuşa həmişəlik Azərbaycana qaytarıldı" [4, s.10].

## Ədəbiyyat / *References*

1. Səfərova Z. "Həmişəyaşar ənənələr". Bakı, 2000.
2. Səfərova Z. "Dedim, dedilər". Bakı, 2012.
3. Səfərova Z. "Şuşa – Azərbaycanın musiqi qalasıdır". Bakı, 2021.
4. Səfərova Z. "Azərbaycan musiqisi müstəqillik illərində". Bakı, 2022.

## Земфира Сафарова – учёный с гражданской позицией

**Хаджар Бабаева**
Институт архитектуры и искусства НАНА. Азербайджан.
E-mail: ekoada@hotmail.com

Сегодня история и теория музыкальной науки, являющейся частью искусствоведения, напрямую связаны с именем Земфиры Сафаровой. Будучи основоположником источниковедения в музыкознании Азербайджана, она имеет также большие заслуги в развитии музыкальной теории. Земфира ханум имеет неоценимые заслуги в изучении жизни и творческой деятельности Узеира Гаджибекова и следует пути, проложенному великим композитором. Служение развитию азербайджанской музыкальной науки она считает своим гражданским долгом. И в статьях учёного-узеироведа о своих современниках подчёркивается их гражданская позиция. Лозунг «Карабах – это Азербайджан!» является творческим кредо музыковеда и отражает её гражданскую позицию.

**Ключевые слова:** Шуша, независимость, У.Гаджибейли, К.Караев, З.Сафарова, музыка